## HƏYAT VƏ FƏALİYYƏTİ



Hikmət Baba oğlu Məmmədov (Hikmət Babaoğlu) 1966-cı il aprelin 17-də Ermənistan Respublikasının Amasiya rayonunun Göllü kəndində ziyalı ailəsində anadan olmuşdur. Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun Politologiya fakültəsini, eləcə də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə 1986-cı ildə Bakı Soyuducular Zavodunda tornaçı, qaynaqçı və konstruktor kimi başlamışdır. 1993–1995-ci illərdə "Çinar" qəzetində müxbir, baş müxbir, 1995–1999-cu illərdə Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında təlimatçı və baş təlimatçı vəzifələrində çalışmışdır. 1999-cu ildə YAP-ın I qurultayında Partiyanın Siyasi Şurasına üzv seçilmişdir.1997–2008-ci illərdə Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində Analitik informasiya şöbəsinin rəisi, Mətbuat xidməti və Analitik informasiya mərkəzinin rəhbəri, həmçinin Ümumi şöbə müdirinin müavini vəzifələrində çalışmışdır.

2005-ci ildə "Demokratik cəmiyyətdə insan hüquqları və azadlıqları: Azərbaycan Respublikası təcrübəsinin politoloji təhlili" mövzusunda dissertasiya müdafiə edərək siyasi elmlər üzrə fəlsəfə doktoru, 2013-cü ildə isə "Azərbaycan Respublikası müasir beynəlxalq siyasi proseslərin aktoru kimi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək siyasi elmlər üzrə elmlər doktoru elmi dərəcəsini almışdır.

2003-cü ildən Bakı Dövlət Universitetinin Politologiya və Sosiologiya kafedrasında baş müəllim, dosent və professor kimi fəaliyyət göstərir. 2014-cü ildən Bakı Dövlət Universitetinin professorudur. 2016-cı ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən FD 02.101 Dissertasiya Şurasının üzvü və həmin Şura nəzdində yaradılmış Elmi Seminarın sədridir.

2008–2021-ci illərdə "Yeni Azərbaycan" qəzetinin baş redaktoru olmuşdur.

1 noyabr 2015-ci ildə Azərbaycan Respublikasının V çağırış, 9 fevral 2020-ci ildə VI çağırış, 21 sentyabr 2024-cü ildə isə VII çağırış Milli Məclisinin deputatı seçilmişdir.

2024-cü il 8 oktyabr tarixində Azərbaycan–Paraqvay parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, 2025-ci il 3 fevral tarixində isə Milli Məclisin İntizam komissiyasının üzvü olmuşdur. Eyni zamanda Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi sədrinin müavini, YAP Mərkəzi Aparatı ilə Milli Məclisdə təmsil olunan deputat qrupu arasında əlaqələndiricidir.

Hikmət Babaoğlu 70-ə yaxın elmi əsərin, 3 monoqrafiyanın, 4 dərsliyin, 3 kitabın, tədris proqramlarının və metodik vəsaitlərin müəllifidir. Onun rəhbərliyi ilə 20-dən artıq fəlsəfə və elmlər doktoru tədqiqat işi aparıb.

Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının politoloji aspektlərini kompleks şəkildə araşdıran ilk tədqiqatçılardan biridir. Müəlliflik hüququ üzrə 6 şəhadətnaməyə malikdir və

20-dən çox ölkədə keçirilən beynəlxalq elmi konfranslarda Azərbaycanı təmsil etmişdir. Bir neçə yerli və beynəlxalq elmi jurnalların redaksiya heyətinin üzvüdür.

Peşəkar fəaliyyətinə görə “Qızıl Qələm” Media mükafatı (2008), “Əməkdar jurnalist” fəxri adı (2010), Həsən bəy Zərdabi adına “Ali Media” mükafatı (2012), “Azərbaycan Ordusunun 100 illiyi” yubiley medalı (2018), “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi” (2019), “Dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi” (2019), “Heydər Əliyevin 100 illiyi” (2023) yubiley medalları ilə təltif edilmişdir. Bundan əlavə, TÜRKSOY-un Xüsusi Media mükafatı (2016), Mahmud Kaşqari Beynəlxalq mükafatı (2016), Beynəlxalq “Türk Dünyasına Xidmət Onur” medalı (2018), 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunmuşdur. Qazaxıstan “Ekonomika və Konsaltinq” Universitetinin fəxri professor (2006), Qırğızıstan “Ç.Aytmatov” Akademiyasının (2010) fəxri üzvüdür.

Ailəlidir, üç övladı var.

## Kitabları

1. İnsan hüquqları və azadlıqları; tarixi təkamülü, beynəlxalq və politoloji aspektlər, Azərbaycan təcrübəsi.("Elm" nəşriyyatı. 241 səh. Bakı 2006.)
2. Azərbaycan Beynəlxalq münasibətlərin aktoru kimi (siyasi, ideoloji və diplomatik məsələlər).("Elm" nəşriyyatı. 515 səh. Bakı 2007.)
3. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. ("Aypara-3" nəşriyyatı. 328 səh. Bakı-2009.)
4. Dünya siyasəti və beynəlxalq münasibətlər.("Çinar-çap" nəşriyyatı. 564 səh. Bakı-2010.)
5. Akdamardan Sarı Gəlinədək erməni yalanı.("Yazıçı" nəşriyyatı. 230 səh. Bakı 2011.)
6. Siyasi təhlil və proqnozlaşdırma.("MSA" nəşriyyatı. 300 sah. Bakı 2012.)
7. İnfoimperializm və media.("MSA" nəşriyyatı. 191 səh. Bakı 2013.)
8. Heydər Əliyev siyasi irsinin politoloji aspektləri("MSA" nəşriyyatı. 456 səh. Bakı 2013.)
9. Dünya siyasəti və beynəlxalq münasibətlər. (2-ci nəşr) ("MSA" nəşriyyatı. 690 səh. Bakı-2014.)
10. Xarici siyasət("Elm" nəşriyyatı. 324 səh. Bakı-2019.)
11. Qara Duman ("Savad" nəşriyyatı. 444 səh. Bakı-2020.)
12. Türk tarixi və mifoloji dünyagörüşündə atlar ("Savad" nəşriyyatı. 444 səh. Bakı-2020.)